**AZƏRBAYCAN RESPUBLİKASININ**

# NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**№ 103**

**Bakı şəhəri, 15 mart 2019-cu il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında” 2010-cu il 18 mart tarixli 50 nömrəli və “Ali təhsilin magistratura səviyyəsi üzrə ixtisasların (ixtisaslaşmaların) Təsnifatı”nın, “Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı”nın və “Azərbaycan Respublikası Nazirlər Kabinetinin qüvvədən düşmüş bəzi qərarlarının Siyahısı”nın təsdiq edilməsi haqqında” 2011-ci il 14 iyun tarixli 95 nömrəli qərarlarında dəyişikliklər edilməsi barədə**

“Təhsil haqqında” Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanına əsasən, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **QƏRARA ALIR:**

1. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 18 mart tarixli 50 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2010, № 3, maddə 261; 2011, № 9, maddə 858; 2013, № 3, maddə 335, № 10, maddə 1229, № 11, maddə 1464; 2016, № 12, maddə 2239; 2017, № 4, maddə 641; 2018, № 11, maddə 2428) ilə təsdiq edilmiş “Rezidentura təhsilinin məzmunu və təşkili Qaydaları”nın Əlavəsində aşağıdakı dəyişikliklər edilsin:

1.1. “060913” sətrində “2” rəqəmi “3” rəqəmi ilə əvəz edilsin;

1.2. “060915” sətrində “Terapiya” sözü “Daxili xəstəliklər” sözləri ilə əvəz edilsin;

1.3. “060921” sətri ləğv edilsin;

1.4. “060922” sətrində “Allerqologiya” sözü “Allerqologiya və immunologiya” sözləri ilə əvəz edilsin;

1.5. “060933” sətri ləğv edilsin;

1.6. “060937” sətrində “Mikrobiologiya” sözü “Tibbi mikrobiologiya” sözləri ilə əvəz edilsin;

1.7. “060939” sətrində “Genetika” sözü “Tibbi genetika” sözləri ilə əvəz edilsin;

1.8. “060940” sətrindən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

| | | |
|---|---|---|
| 060941 | Ailə təbabəti | 2 il |
| 060942 | Nüvə təbabəti | 4 il |
| 060943 | Endodontiya | 3 il |
| 060944 | Parodontologiya | 3 il |
| 060945 | Restorativ stomatologiya | 3 il |
| 060946 | Ortopedik stomatologiya | 3 il |
| 060947 | Uşaq stomatologiyası | 3 il |
| 060948 | Ortodontiya | 3 il |
| 060949 | Uşaq və yeniyetmə psixiatriyası | 3 il |
| 060950 | Neonatologiya | 4 il |
| 060951 | Uşaq endokrinologiyası | 4 il |
| 060952 | Uşaq kardiologiyası | 4 il |
| 060953 | Uşaq nefrologiyası | 4 il |
| 060954 | Uşaq nevrologiyası | 4 il |
| 060955 | Uşaq qastroenterologiyası | 4 il |
| 060956 | Uşaq urologiyası | 5 il |
| 060957 | Uşaq yoluxucu xəstəlikləri | 4 il |
| 060958 | Uşaq ürək-damar cərrahiyyəsi | 5 il |

2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 iyun tarixli 95 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 6, maddə 568; 2012, № 4, maddə 388, № 5, maddə 492; 2013, № 3, maddə 331, № 8, maddə 1003; 2015, № 6, maddə 787; 2016, № 3, maddə 620; 2017, № 2, maddə 289, № 3, maddə 492, № 9, maddə 1735; 2018, № 2, maddə 359)

ilə təsdiq edilmiş “Rezidenturada həkim-mütəxəssis hazırlığı aparılan ixtisasların Təsnifatı”nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. “060915” sətrində “Terapiya” sözü “Daxili xəstəliklər” sözləri ilə əvəz edilsin;

2.2. “060921” sətri ləğv edilsin;

2.3. “060922” sətrində “Allerqologiya” sözü “Allerqologiya və immunologiya” sözləri ilə əvəz edilsin;

2.4. “060933” sətri ləğv edilsin;

2.5. “060937” sətrində “Mikrobiologiya” sözü “Tibbi mikrobiologiya” sözləri ilə əvəz edilsin;

2.6. “060939” sətrində “Genetika” sözü “Tibbi genetika” sözləri ilə əvəz edilsin;

2.7. “060940” sətrindən sonra aşağıdakı məzmunda sətirlər əlavə edilsin:

| | |
|---|---|
| 060941 | Ailə təbabəti |
| 060942 | Nüvə təbabəti |
| 060943 | Endodontiya |
| 060944 | Parodontologiya |
| 060945 | Restorativ stomatologiya |
| 060946 | Ortopedik stomatologiya |
| 060947 | Uşaq stomatologiyası |
| 060948 | Ortodontiya |
| 060949 | Uşaq və yeniyetmə psixiatriyası |
| 060950 | Neonatologiya |
| 060951 | Uşaq endokrinologiyası |
| 060952 | Uşaq kardiologiyası |
| 060953 | Uşaq nefrologiyası |
| 060954 | Uşaq nevrologiyası |
| 060955 | Uşaq qastroenterologiyası |
| 060956 | Uşaq urologiyası |
| 060957 | Uşaq yoluxucu xəstəlikləri |
| 060958 | Uşaq ürək-damar cərrahiyyəsi |

3. Bu Qərar 2019-cu il 15 sentyabr tarixindən qüvvəyə minir.

**Azərbaycan Respublikasının**
**Baş naziri** **Novruz Məmmədov**